*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 22 may 2019-cu il № 39 (2356) Qiyməti 30 qəpik

# Prezident İlham Əliyev müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib



*Mayın 17-də Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibəti ilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib.*

*AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış edib.*

- Hörmətli səfirlər.

Müqəddəs Ramazan ayında bizim görüşlərimiz ənənəvi xarakter daşıyır. İlk növbədə, xahiş edirəm ki, mənim səmimi salamlarımı, xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız. Bildiyiniz kimi, müsəlman ölkələri ilə bizim çox sıx əməkdaşlığımız var. Siyasi sahədə fəal dialoq aparılır. Əlbəttə, çox istərdik ki, iqtisadi sahədə daha da fəal əməkdaşlıq olsun. Ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu, digər sahələrdə birgə fəaliyyətimiz xalqlarımız üçün çox böyük əhəmiyyət kəsb edə bilər. Müsəlman ölkələrinin rəhbərləri ilə çoxsaylı görüşlərimdə bu məsələlər daim gündəlikdədir. Əlbəttə, biz çox istərdik ki, təmsil etdiyiniz ölkələrdən olan şirkətlər Azərbaycanda müxtəlif layihələrdə daha fəal iştirak etsinlər.

Bildiyiniz kimi, son vaxtlar Azərbaycanda turizmin inkişafı sürətlə gedir. Çox şadam ki, müsəlman ölkələrindən olan turistlər Azərbaycana gəlirlər və onların sayı ildən-ilə artır. Bir sözlə, ikitərəfli formatda əlaqələrimiz uğurla inkişaf edir. Bu əlaqələrin gələcək inkişafı üçün çox yaxşı şərait və imkanlar var.

Biz beynəlxalq təşkilatlar çərçivəsində də çox fəal əməkdaşlıq edirik, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında bir-birimizə qarşılıqlı dəstək göstəririk. Bu qarşılıqlı dəstək bizim əlaqələrimizin yüksək səviyyədə olmasının təzahürüdür. Xüsusilə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı müsəlman ölkələrinin dəstəyi bizim üçün çox əhəmiyyətlidir. Bildiyiniz kimi, Ermənistan Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağı və onun ətrafında yerləşən 7 rayonu uzun illərdir işğal altında saxlayır. Bu münaqişə və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Bu, beynəlxalq hüququn pozulmasıdır. Baxmayaraq, beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı müxtəlif qərar və qətnamələr qəbul etmişlər, əfsuslar olsun ki, işğalçı dövlətə lazımi təzyiqi göstərmirlər. BMT Təhlükəsizlik Şurası - dünyanın ali orqanı 4 qətnamə qəbul edib və bu qətnamələrdə göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Ancaq bu qətnamələr kağız üzərində qalıb və bu, ikili standartların təzahürüdür. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır və Azərbaycanın ərazi bütövlüyü tam beynəlxalq dəstək alıbdır. Ancaq işğalçıya kifayət qədər təzyiq göstərilmir. Münaqişənin həlli ilə bağlı ölkəmizin mövqeyi birmənalıdır. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Beynəlxalq təşkilatlarda bizə göstərilən dəstəyə görə müsəlman ölkələrinə bir daha təşəkkürümü bildirirəm.

Azərbaycan da öz növbəsində, beynəlxalq təşkilatlarda müsəlman ölkələrini daim dəstəkləyir. Bildiyiniz kimi, biz İslam həmrəyliyinin gücləndirilməsinə çox böyük əhəmiyyət veririk və bu istiqamətdə əməli addımlar atılır. Azərbaycanda keçirilmiş çoxsaylı tədbirlər İslam həmrəyliyinin möhkəmlənməsinə xidmət göstərir. Biz hamımız yaxşı bilirik ki, İslam həmrəyliyinin möhkəmlənməsi gündəlikdə duran əsas məsələlərdən biridir. Azərbaycan öz tərəfindən bu istiqamətdə çox ciddi addımlar atır və atacaqdır.

Bildiyiniz kimi, eyni zamanda, ölkəmizdə mədəniyyətlərarası dialoqla bağlı çoxsaylı tədbirlər keçirilir. Bu yaxınlarda Bakıda keçirilmiş V Mədəniyyətlərarası Dialoq Forumu da bu sıradan olan tədbirlərdəndir. Onu da bildirməliyəm ki, Azərbaycan İslam mədəniyyətini dünyada təbliğ etməklə bağlı çox böyük səylər göstərir. Bir çox ölkələrdə konfranslar, sərgilər, tədqimatlar keçirilir və beləliklə, biz İslamı dünyaya sülh, mərhəmət dini kimi təqdim edirik.

Keçən il Naxçıvan - bizim qədim şəhərimiz İslam Mədəniyyətinin Paytaxtı elan edilmişdir. Bu qərara görə biz bütün müsəlman ölkələrinə minnətdarıq. Onu da qeyd etməliyəm ki, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın İslam həmrəyliyinin möhkəmlənməsində oynadığı rolu çox yüksək qiymətləndirir.

Mən bir daha sizi ürəkdən salamlayıram. Bir daha xahiş edirəm ki, mənim səmimi salamlarımı dövlət-hökumət başçılarına çatdırasınız. Təmsil etdiyiniz ölkələrin xalqlarına sülh, əmin-amanlıq və xoşbəxtlik arzulayıram.

# Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat-taktiki təlimləri başlayıb

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə mayın 20-dən Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin, qisim, birlik və birləşmələrin iştirakı ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri başlayıb.*





Düşmənin gecə vaxtı hücumunun dəf edilməsi, müxtəlif istiqamətlərdə ona əks zərbələrin endirilməsi və qoşunlarımızın hücuma keçməsi təlimin əsas mövzusudur.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlərə 10 minədək şəxsi heyət, 150 tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 35 təyyarə və helikopter cəlb olunub.

Çətin relyef, gecə vaxtı və mürəkkəb radioelektron şəraitdə müxtəlif poliqonlarda keçirilən döyüş atışlı təlimlərdə tank, aviasiya, raket və artilleriya hissələri, eləcə də digər döyüş elementləri arasında uzlaşmanın təşkili, düşmənin müdafiəsinin dərinliyində desant və xüsusi manevr qüvvələrinin tətbiqi, idarəetmə orqanlarının bacarıqlarının təkmilləşdirilməsi, o cümlədən şəxsi heyətin mənəvi-psixoloji təminatı məsələləri üzrə tapşırıqlar yerinə yetiriləcək.

Bütün fəaliyyətlər təlimlərdə iştirak edən qoşunların gecə və çətin iqlim şəraitində dəqiq qarşılıqlı əlaqəsinin təmin edilməsi ilə icra olunacaq.

* * *

Genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin növbəti mərhələsində plana uyğun olaraq qoşunların fəaliyyətləri ilə bağlı verilən tapşırıqlar xəritələr üzərinə işlənilir.

Mürəkkəb radioelektron şəraitdə kəşfiyyat və digər orqanlardan əldə olunan və yerlərdəki komandirlərdən daxil olan məlumatlar xəritələrdə əks olunur.

Mövcud vəziyyətə uyğun hazırlanan məruzələr sərəncam şəklində icra edilməsi məqsədilə müasir rabitə və avtomatlaşdırılmış idarəetmə sistemləri vasitəsilə komandir-rəis heyətinə çatdırılır.

Eyni zamanda, səhra şəraitində yaradılan əsas komanda məntəqəsinin atəşlə zərərvurmanın planlaşdırılması qrupu tərəfindən döyüşün gedişində atəşlə təlafat verilməsini effektiv təmin etmək məqsədilə düşmənin mühüm hərbi hədəfləri seçildikdən, aviasiya, zenit-raket və artilleriya qurğuları, həmçinin digər atəşlə zərərvurma vasitələri arasında bölüşdürüldükdən sonra müvafiq komandalar qoşunlara ötürülür.

* * *

Genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin rəhbərinin qəbul etdiyi qərara əsasən qoşunların və idarəetmə məntəqələrinin əməliyyat təyinatı rayonlarına yerdəyişməsi, zərbə qruplaşmalarının yaradılması və müəyyən olunmuş istiqamətlərdə tətbiqinə hazır olması, cəbhə və ordu aviasiyasının ehtiyat aerodromlarına köçürülməsi, eləcə də raket və artilleriya qoşunlarının ehtiyat atəş və start mövqelərinə çıxarılması icra olunub.

Təlimin niyyətinə uyğun olaraq əməliyyatlarda atəş dəstəyi həyata keçirəcək tank bölmələri təyin edilmiş məntəqələrə çıxarıldıqdan sonra növbəti mərhələyə hazırlıqla bağlı tapşırıqlar icra edirlər.

Genişmiqyaslı əməliyyat-taktiki təlimləri mayın 24-dək davam edəcək.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***20 may 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Şıxlar, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***21 may 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli kəndində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Qaralar kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Kəngərli, Sarıcalı, Mərzili, Füzuli rayonunun Qərvənd, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan Müdafiə Nazirliyinin nümayəndə heyəti "BOO-2019" növbəti konfransında iştirak edib




Müdafiə Nazirliyi Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin idarə rəisi general-mayor Ənvər Əfəndiyevin rəhbərlik etdiyi nümayəndə heyəti Moskva şəhərində keçirilən "Beynəlxalq ordu oyunları-2019" yarışlarının növbəti beynəlxalq konfransında iştirak edib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbir zamanı yarışların şərtləri və qaydaları, hazırlıq işləri müzakirə olunub, eləcə də müsabiqənin təşkil olunacağı ərazilərə baxış keçirilib.

Hərbçilərin beynəlxalq yarışlarında Azərbaycan Ordusunun nümayəndələrinin "Dəniz kuboku", "Tank biatlonu", "Artilleriya atəşi ustaları", "Snayper həddi", "Hərbi-tibbi estafet" və "Səhra mətbəxi" müsabiqələrində iştirakı planlaşdırılır.

"Beynəlxalq ordu oyunları-2019" yarışlarının cari il avqustun 3-dən 17-dək keçirilməsi nəzərdə tutulur.

# Respublika Günü münasibətilə Çilidə rəsmi qəbul

Azərbaycanın Çilidəki diplomatik missiyasının təşkilatçılığı ilə 28 May Respublika Günü və Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyi ilə əlaqədar Çilinin Santiaqo şəhərində rəsmi qəbul təşkil edilib.

Tədbirdə çıxış edən səfir Rəşad Aslanov müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin bu il 101-ci ildönümünün və Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının yaradılmasının 100 illik yubileyinin qeyd olunduğunu bildirib. Səfir Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu qısa müddətdə gördüyü tarixi əhəmiyyətli tədbirlərdən bəhs edib.

Diplomat 1991-ci ildə müstəqilliyinin bərpasından sonra ölkəmizin üzləşdiyi problemlərdən bəhs edərək Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və nəticədə ölkəmizin Dağlıq Qarabağ bölgəsinin və ətraf 7 rayonun işğal edildiyini də diqqətə çatdırıb. Bildirilib ki, beynəlxalq ictimaiyyət Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyini dəstəkləyir.

**AZƏRTAC-ın materialları əsasında**

Ön xətdən reportaj

# “Ordumuzun qüdrəti əsgərin gücü deməkdir”

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ordu gəncləri ilə görüşlərində bildirirdi ki, əsgərin gücü onun vətənpərvərliyindədir. Doğrudan da, ürəyində, qəlbində Vətən sevgisi olan əsgərin gücü ən müasir silahla daha da güclənir. Əsgər Vətəninə, millətinə, dövlətinə sıx tellərlə bağlıdır. Məlum Aprel və Günnüt zəfəri Azərbaycan Ordusunda zabit və əsgərlərin yüksək vətənpərvərlik hissinə malik olduğunu göstərdi. Çox qısa bir vaxtda mühüm yüksəkliklər fəth edildi. Bu gün həmin yüksəkliklərdə ucalan bayrağımız zabitimizin, əsgərimizin mənəvi dəyərlərə sədaqətinin rəmzi kimi dalğalanır.*



Cəbhə bölgəsinə ezamiyyətlərdə əsgərlərimizin baxışlarında hiss etmişəm ki, torpaqlarımız qətiyyətlə qorunur. Yüksək mənəvi keyfiyyətlərə malik olan əsgərlərimizin cəbhə xəttində döyüş növbətçiliyini uğurla keçirməsi xalqın orduya inamını möhkəmlədir, bizi Böyük Qələbəyə yaxınlaşdırır. Son illər öz gücü və qüdrəti ilə dünyanın ən güclü orduları sırasında yer alan Azərbaycan Ordusu Ali Baş Komandanın istənilən əmrini məsuliyyətlə icra etməyə qadirdir.

Mayor Emin Əkbərov qeyd edir ki, şəxsi heyətin döyüş ruhu yüksəkdir. Bu gün sıralarımızdakı hər bir əsgər torpaqlarımızın qalan hissəsini də hərb yolu ilə azad etməyə tam hazır və qadirdir. Azərbaycan Ordusunun düşmən üzərində qələbələri hər kəsə ruh yüksəkliyi aşılayıb. Əsgərlərimiz qəhrəmanların, şəhidlərin hər birini özlərinə örnək bilirlər. Hər biri hücum əmri gözləyir.



Düşmənlə təmas xəttində Vətən borcunu yerinə yetirən əsgərlərin görüşünə tələsirik. Zabit yolboyu deyir ki, qarşıdan isti yay ayları gəlir. Bu fəsildə də hava şəraiti tez-tez dəyişir. “Bir neçə gün qabaq qar da yağırdı. Lakin hava şəraitindən asılı olmayaraq əsgərlərimiz döyüş növbəsində ayıq-sayıqdırlar. Hər kəs burada öz məsuliyyətini dərindən hiss edir. Döyüş hazırlıqlarına da söz ola bilməz. Hər biri silahından istifadə etməyi bacaran, yüksək döyüş hazırlıqlı əsgərdir. Ən güclü silahları Vətən sevgisidir. Mütəmadi olaraq mövqeləri gəzir, onlarla fərdi söhbətlər aparıram. Şahidi oluram ki, yüksək əhval-ruhiyyədə xidmət edirlər, daim qələbə ab-havasındadırlar. “Döyüşə hazırsınızmı?” sualını verəndə hamısı “Bəli, düşmən bizdən qat-qat zəifdi, Ali Baş Komandanımız əmr versin, torpaqlarımızı azad edək”, - deyirlər”.

Səngərlə irəliləyirik, mühəndis-istehkam işləri burada da yüksək tələblərə cavab verir. Bu tədbirlərin təhlükəsizlik baxımından dəyəri böyükdür. Əsgərlər dəbilqə və gödəkçələrlə təmin ediliblər. Onlar yaxşı bilirlər ki, təhlükəsizlik qaydalarının pozulması bölmənin ümumi fəaliyyətinə ziyan vura bilər. Buna görə də heyət növbəyə getməzdən əvvəl təlimatlandırılır, təhlükəsizlik qaydaları çatdırılır. Bunları zabit Araz Vəliyev də təsdiqləyir. "Döyüş növbətçiliyinin ayıq-sayıq aparılması üçün şəxsi heyətin düzgün təlimatlandırılması əsas şərtlərdəndir. Sırada düzülənlər döyüş növbətçiliyinə gedəcək heyətdi. Gördüyünüz kimi, gizir Afərin Xeybərzadə onları təlimatlandırır, düşmən hücumunun ən çox ehtimal edildiyi istiqamətləri xatırladır, təhlükəsizlik qaydalarını çatdırır. Bütün tapşırıqları verdikdən sonra növbətçiliyin təhvil-təslimi olur. Xidmətimiz uğurla gedir. Əsgərlərin xidmətə sevgi ilə yanaşması xidmətin təşkilinə müsbət təsir edir. Hərbi hissədən xeyli uzaqda olsaq da, bütün təminatlarımız vaxtlı-vaxtında gətirilir. Heç bir çətinlik yoxdu", - leytenant A.Vəliyev deyir.

...Hava xoşdur. Yağıntılı keçən günlərdən sonra ərazilər yamyaşıl dona bürünüb. Yol boyu bizi müşayiət edən günəşin saçaqları yaşıl otların, təzə ləçəklənən, boy qaldıran çiçəklərin üzərinə yayılır. Bu mənzərənin ruha sığal çəkdiyi yerdə, Vətən keşikçilərinin qətiyyətli sözləri, nümunəvi xidmətləri də könül oxşayır. Bir təbiətin mənzərəsinə baxıb valeh olursan, bir də igid oğullarımıza baxıb qürurlanırsan. Bu xoş duyğular arasında ürəyimdən bir sızıltı keçir: torpaqlarımızın bir hissəsi düşmən tapdağındadır. Tezliklə o ərazilərdə də al-əlvan çiçəklər bitəcək.

Əsgər Elvin Qurbanov məni düşüncələrimdən ayırır:

- Düşmən tərəfi atəşkəsi yenə pozur, lakin tez də cavablarını alırlar. Bir gənc üçün əsgəri xidmət, Vətənə övladlıq borcunu ödəmək müqəddəs və qürurlu vəzifədir. Vətəni sadəcə sevmək azdır, onun uğrunda hər addımda fədakarlığa hazır olmalıyıq. Hərbi xidmətə gəldiyim ilk gündən yurdumun müdafiəsində ayıq-sayıq dayanacağıma söz vermişəm. Biz də üzərimizə düşən vəzifələrin öhdəsindən məsuliyyətlə gəlir, döyüş növbəsində ayıq-sayıq dayanırıq.

Əsgər Mirmövsüm Vəliyev də səngərdə xidmət etməkdən fərəhlənir. Deyir ki, Vətəni düşməndən qoruyan oğulların sırasında olmaq onun



üçün böyük şərəfdir. "Həmişə vətənpərvərlikdən söz düşəndə Mübariz, Fərid, Samid, Raquf, Çingiz... kimi oğulları özümə ideal sanıram. Hər birinin ömür yolu, vətənpərvərliyi bizə örnəkdir".

Əsgərlərin sözləri onun göstəricisidir ki, həm cəmiyyətimizdə, həm də ordumuzda vətənpərvərlik yüksək səviyyədə təbliğ olunur. Həm də bir daha sübut edir ki, ordu quruculuğunda mənəvi-psixoloji hazırlığın yüksəldilməsi istiqamətində görülən uğurlu işlər müsbət nəticələrini verir. Bu gün istər arxa cəbhədə, istərsə də ön xətdə xidmət edən şəxsi heyət yüksək döyüş ruhundadır və istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Əsgərlər Sübhan Sanıyev, Tacir Hüseynov, Elvin Cəfərov, Pərviz Zeynalov və digərləri də bunu təsdiqləyirlər.

"Azərbaycan Ordusunda xidmət etmək hər bir azərbaycanlı gəncin mənəvi borcu, şərəfli vəzifəsidir. Keçirilən nəzəri dərslərin, təlimlərin nəticəsində bacarıqlı əsgərlər kimi formalaşmışıq. Səngərdə dayanmaq, Vətənə keşik çəkmək hər birimiz üçün qürurvericidir. İşğal altında olan torpaqlarımıza baxdıqca yağıları oradan çıxarmaq üçün səbirsizlənirik. Daha da əzmkar, məsuliyyətli xidmət edirik. Ali Baş Komandan tərəfindən əmr olacağı təqdirdə, biz işğal olunmuş torpaqlarımızı düşməndən azad etməyə tam qadirik", - əsgərlər belə deyirlər.

...Vətənpərvərlik budur! Qorxu bilmədən torpaqların keşiyini çəkən əsgər, Vətəni əsl övlad məhəbbəti ilə sevən bu igidlərlə ehtiramlarla sağollaşırıq.

Bu ehtiram yolboyu gördüyüm füsunkar mənzərələrlə bütünləşir. Günortadan xeyli keçib. Günəş şüalarının parlaqlığı azalmağa doğru gedir. İndi təbiətin füsunkarlığı daha çox, daha həssaslıqla gözə çarpır. Yaşıl ərazilərin, al-əlvan çiçəklərin cazibəsində quşların, kəpənəklərin uçuşunu Böyük Qələbənin müjdəsi bilmək keçir könlümdən. Yaşıl don üzərində əsrarəngiz gözəllik yaradan çiçəklərlə ordumuzun güc və qüdrətini formalaşdıran əsgərlərimizin xidməti arasında üzvi bağlılıq görürəm və mənə elə gəlir ki, bu vəhdətə hamı bağır basır...

Dahi sərkərdələrin, hərb xadimlərinin dediyi kimi, ordunun qüdrəti əsgərinin gücündən asılıdır.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# "Ən yaxşı zenit-raket artilleriyası batareyası"

*Əlahiddə Ümumqoşun Ordunun Hava Hücumundan Müdafiə hissə və bölmələri Vətənimizin hava sərhədlərini etibarlı müdafiə edir. Ən çətin tapşırıqların uğurla yerinə yetirilməsi üçün hərbi qulluqçularımızın bilik və bacarıqları daim təkmilləşdirilir, döyüş növbətçiliyi uğurla həyata keçirilir.*





Silahlanmada mövcud olan hava hücumundan müdafiə vasitələrinin texniki xüsusiyyətləri alçaq hündürlükdə, qəflətən peyda olan hədəflərin vaxtında aşkar olunmasına və məhv edilməsinə imkan verir. Heyətlərin dəfələrlə döyüş atışlı taktiki təlimlərdə yüksək nəticələr göstərməsi həm hərbi qulluqçuların peşəkarlığının, həm də silahlanmada olan hava hücumundan müdafiə vasitələrinin döyüş imkanlarının ən müasir səviyyədə olmasının təsdiqidir.

2019-cu ilin döyüş hazırlığı planına əsasən, Naxçıvan Qarnizonu qoşunlarında "Ən yaxşı zenit-raket artilleriya batareyası" adı uğrunda keçirilən yarışda yüksək nəticələr əldə etmiş bölmələrdən birindəyəm. Ümumqoşun birləşməsinin ön xətdə yerləşən hava hücumundan müdafiə bölməsində zenit qurğularının heyətləri ilə praktiki atışlar keçirilirdi. Hər bir hədəf heyətlər tərəfindən tam dəqiqliyi ilə məhv edildi.

Atışlardan sonra bölmənin zabiti Dilqəm Cabayev zenit qurğusunun taktiki-texniki xüsusiyyətləri haqqında məlumat verərək bildirdi ki, bu qurğu müəyyən məsafədə, hündürlükdə uçan təyyarə, vertolyot, pilotsuz aparatlar və digər hava hədəflərini məhv etmək üçün təyin edilib. Qurğunun konstruktiv xüsusiyyətləri 2000 metr uzaqlıqda olan yerüstü yüngül zirehli hədəflərlə və atəş nöqtələri ilə mübarizə aparmaq üçün istifadə etməyə imkan verir. Bölmədə praktiki atışların tez-tez icra edilməsi şəxsi heyətin bilik, bacarıq və təcrübəsini daha da artırır. Keçirilən məşğələ və təlimlərə cəlb olunan bu zenit qurğusu heyətlərinin hədəfləri ilk atəşlə vurmaları onların dərsləri yüksək səviyyədə mənimsəmələrindən və peşəkarlıqlarından xəbər verir.

Zabit Yunis Tarverdiyev bildirdi ki, bu yarışa daşınan zenit-raket komplekslərinin və zenit qurğularının heyətləri, eləcə də hava düşmənini təqlid edən ordu aviasiyası cəlb edilmişdi. Yarış zamanı şəxsi heyətin təlimlərə hazırlığı üzrə praktiki bacarıqları və bilik səviyyəsi yoxlanıldı, normativlərin şərtinə uyğun fəaliyyətləri qiymətləndirildi. Hazırda bizim bölmədə zenit qurğularının heyətləri ilə keçirilən praktiki atışlara hava düşmənini təqlid edən ordu aviasiyasının da cəlb edilməsi şəxsi heyətin peşəkarlığını daha da artırır.

Məşğələ, təlim və yarışlarda yüksək nəticələr əldə etmiş hərbi qulluqçulardan çavuş Aqil Məmmədov bildirdi ki, hava sərhədlərini müdafiə etməsi ilə fəxr edən əsgərlərdən Mehdi Alpaşayev, Həmid Cabbarov, Nurlan Abbasov, Hümbət Hümbətov, Balabəy Məmmədov, Yüksəl Əliyev və digərləri hər an düşmənin hava hücumunu dəf etməyə hazırdırlar.

Hərbi ekspertlərin fikrinə görə yerüstü zirehli hədəflərə və canlı qüvvəyə səmərəli effektli olan bu zenit qurğusu alçaqdan uçan hava hədəflərini də vura bilər. Təbii ki, ordumuzun silah arsenalında işğalçıları tez bir zamanda məhv etməyə qadir olan ən müasir silah və texnikalar da mövcuddur. Ordumuz atıcı silahlardan tutmuş, ən müasir reaktiv-artilleriya sistemlərinə, zirehli döyüş maşınlarına, hava hücumundan müdafiə vasitələrinə və aviasiya texnikalarına qədər bütün növ silah və texnikaya malikdir. Bu silah və texnikalar yüksək döyüş əzminə malik, vətənpərvər, cəsur döyüşçülərə təhkim edilib.

**Leytenant
Nəriman NƏCƏFOV,
"N" hərbi hissəsi**

# Respublika Günü münasibəti ilə tədbir keçirildi

*Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində 28 May Respublika Günü münasibəti ilə tədbir keçirildi. Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*



Tədbiri giriş sözü açan hərbi hissənin zabiti Qənbər Orucov bildirdi ki, xalqımız 28 May Respublika Gününü hər il böyük təntənə ilə qeyd edir. Həmin gün - 1918-ci il mayın 28-də Gülüstan və Türkmənçay müqavilələri ilə müstəqilliyini itirən, yüz ildən artıq müstəmləkə şəraitində yaşayan, mədəniyyəti, dili, dini sıxışdırılan Azərbaycan azadlığa çıxmışdı. "Azərbaycan Xalq Cümhuriyyəti XX əsr dünya siyasi mədəniyyətinin ən qabaqcıl demokratik formalarını öz dövlət təsisatlarında tətbiq etməyin ilk təcrübəsi idi. Müsəlman Şərqində ilk Demokratik Respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdı. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi. Lakin beynəlxalq aləmdə yaranmış gərginlik, eləcə də Azərbaycan Demokratik Respublikasının Şimalında yaranmış təhlükə nəticəsində Demokratik Respublika uzun müddət fəaliyyət göstərə bilmədi. 1920-ci il aprelin 28-də Sovet Rusiyası tərəfindən ilhaq edildi".

Natiq onu da qeyd etdi ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra xalqın təkidli tələbi ilə Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıdışı ilə Azərbaycanın ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq aləmlərində əsl dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun dövlət quruculuğu prosesi başlandı. Ümummilli Liderin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, ordu nizami ordu kimi formalaşdırıldı. Azərbaycan dövlətçiliyi xilas edildi, mühüm beynəlxalq müqavilələr imzalandı. Bunlar Azərbaycanın dövlət olaraq möhkəmlənməsini təmin etdi: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndərin siyasi kursunu bütün sahələr üzrə uğurla davam etdirir...

Tədbir diskussiya formatında sona çatdı.

**Baş leytenant
Orxan HÜSEYNLİ,
"Azərbaycan Ordusu",
foto
çavuş
N.PƏNAHOVUNDUR**

# "Bu gün bizim Cocuq Mərcanlıda olmağımız ordumuzun şücaəti sayəsindədir"

*Azərbaycan Daxili İşlər nazirinin sabiq müavini general-mayor Kamil Məmmədov Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinə səfər edib.*

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, general-mayor Kamil Məmmədov və Müdafiə Nazirliyinin zabitləri əvvəlcə Horadiz şəhərindəki Heydər Əliyev Mərkəzinə gələrək, Ümummilli Liderin abidəsi önünə gül dəstələri qoyublar. Sonra Horadiz şəhərində ucaldılmış "Aprel şəhidlərinə xatirə" abidəsi ziyarət edilib, şəhidlərin xatirəsi ehtiramla anılıb.

Cocuq Mərcanlı kəndinə gələn K.Məmmədov tam orta məktəbin şagird və müəllimləri ilə görüşüb, təhsil ocağında yaradılan şəraitlə tanış olub. Şagirdlər vətənpərvərlik mövzusunda şeirlər söyləyiblər.

Kamil Məmmədov Cocuq Mərcanlıda tikilən Şuşa məscidinin bənzəri olan məscidə də gəlib, burada şəhidlərin ruhuna dua oxuyub.

Daha sonra ön xəttə xidmət edən əsgər və zabitlərlə görüş keçirilib. General-mayor Kamil Məmmədov əsgərlərin xidmət şəraiti ilə tanış olub, onlarla birgə nahar edib, müşahidə məntəqəsindən işğal altında olan ərazilərimizi seyr edib. Ön xəttə xidmət edən əsgərlərə sovqatlar verilib. Kamil Məmmədov Cocuq Mərcanlıdakı polis məntəqəsində də olub, burada xidmət edən polislərlə görüşərək söhbət edib, onlara işlərində uğurlar arzulayıb.

General-mayor Kamil Məmmədov AZƏRTAC-a müsahibəsində deyib: "Cocuq Mərcanlıda görülən işlər haqqında televiziyadan, internetdən, xəbər saytlarından çox eşitmişəm, çox məlumatım var. Bu gün isə özüm bu yerlərə gəldim. Cocuq Mərcanlının Prezident İlham Əliyevin xüsusi diqqəti ilə yenidən qurulması və kənd sakinlərinin öz doğma yurdlarına qayıtması onu göstərir ki, biz işğal olunmuş bütün kənd və şəhərlərimizi azad edərək, yenidən quracağıq. Hazırda Azərbaycan Ordusu dünyanın ən güclü ordularındandır. Ordunun təminatı və döyüş ruhu çox yüksək səviyyədədir. Bu gün bizim Cocuq Mərcanlıda olmağımız da ordumuzun şücaətinin sayəsindədir. Mən Azərbaycan Ordusu ilə fəxr edirəm".

*Asudə vaxt haqqında düşüncələr*

# “Hər saatın qədrini bilirik”

*Hərbi hissə komandirlərinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavinləri ilə keçirilən seminarda Müdafiə naziri general-polkovnik Zakir Həsənov bildirdi ki, azərbaycançılıq ideologiyasına, Heydər Əliyev irsinə yiyələnmiş şəxsi heyət yüksək döyüş əzminə və qələbə ruhuna malikdir. Müdafiə naziri tərbiyə işinin də planlı şəkildə aparılması, qoşunların döyüş tapşırıqlarını yerinə yetirməyə hər an hazır vəziyyətdə olmaları üçün ideoloji iş və mənəvi-psixoloji təminatın gücləndirilməsi ilə bağlı vəzifəli şəxslərə konkret tapşırıqlar verdi...*



Hərbi xidmət günün nizam qaydalarıyla tənzimlənir. Bu baxımdan şəxsi heyətin mənəvi-psixoloji hazırlığına yönəldilən bütün tədbirlər kimi günün nizam qaydalarına daxil olan mədəni-asudə vaxt da ordu quruculuğunun tərkib hissələrindəndir. Belə tədbirlər ideoloji baxımdan məqsədyönlü, məzmunlu təşkil edilərsə, əsgərin dünyagörüşünün formalaşmasında da gərəkli olur.

Hərbi hissələrdə mədəni-asudə vaxt müvafiq təlimatlar əsasında təşkil olunsa da, səmərəli hesab edilən yeniliklərdən də bəhrələnmək faydalı olardı. Əsgərlərin maraqlarının, meyillərinin müəyyənləşdirilməsi, qruplaşdırılması mədəni-asudə vaxtın təşkilində vacib şərtlərdəndir. Ezamiyyətlərdə zabitlərlə bu tezislər haqqında da kifayət qədər əhatəli kəlmələşmişik, maraqlı, bəzən gərəkli fikir mübadilələrimiz də olub.

Mədəni-asudə vaxtın təşkilində əsasən mədəniyyət, incəsənət, bəzən də ədəbiyyat yönümlü tədbirlərə üstünlük verilir. Ordu quruculuğunun mənəvi-psixoloji hazırlıq kimi mühüm bir amili tələb edir ki, bunlarla kifayətlənilməməlidir.

İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi - Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini general-mayor Rasim Əliyevin seminar iştirakçılarının nəzərinə çatdırdığı mühüm bir amil həmişə diqqət mərkəzində saxlanılmalıdır, tədbir təşkil edilərkən bu amilin müxtəlif çalarlarının nə səviyyədə səmərəli olacağı nəzərə alınmalıdır: mədəniyyət sahəsində fəaliyyət göstərən dövlət orqanları, müəssisələri ilə qarşılıqlı əlaqə. Bu əlaqə həm də ordu-cəmiyyət münasibətlərinin daha da həssaslaşmasına xidmət edəcək. Bu orqanların, müəssisələrin əməkdaşlarının da iştirakı ilə bayram günlərinin, əlamətdar hadisələrin daha geniş informasiya verilməklə qeyd olunması əsgərlərin vətənpərvərlik duyğularını daha da dönməzləşdirir.

Tarixi yerlərə, tarixin müəyyən dövrünü yaşadan tarixi abidələrə ekskursiyalar da bu qəbildəndir.

Mədəni-asudə vaxtın təşkilində bədii, ədəbi-bədii proqramlardan da bəhrələnilir. Uğur - nəticə xeyli dərəcədə ssenaridən də asılıdır. Ona görə də ssenari “Bir saat müddətində əsgərə nə və necə aşılanacaq?” - sualını əhatələməlidir. Aşılanacaqların nəticələrini ehtimal etmək mümkün deyilsə, deməli, bu tədbir gərəkli tədbir deyil, zamandan - vaxtdan səmərəsiz istifadə edilib; hərbi xidmətin hər saatının qədri bilinməlidir. Ədəbi qiraət, poeziya musiqini, musiqi ədəbi qiraəti tamamlayırsa, biri digərinin nəticəsi - davamı olursa, proqram təkcə vaxtın ötüşməsinə yönəldilmir, həm də maarifləndirmə, dünyagörüşü formalaşdırma vasitəsinə çevrilir. Eyni fikirlər bölükdə təşkil edilən (ediləcək) disputlara, viktorinalara da şamil edilməlidir. Disput üçün seçilən mövzu, viktorina üçün seçilən suallar bilavasitə mənəvi-psixoloji hazırlığa yönəldilməklə fəzilətlər - Hərbi anda, dövlətçiliyə sədaqət, Vətənə sevgi, dostluq hissləri aşılamalıdır. Belə təşkil edilən mədəni-asudə vaxtın mahiyyəti etibarilə ordu quruculuğu prosesinin tərkib hissəsi olur.

Ötən ilin payızında ön xətdə yerləşən hərbi hissələrdən birində əsgərlərin mədəni-asudə vaxtının necə keçirilməsiylə də maraqlanmışdım. Zabitlərdən biri demişdi ki, hərbi hissədə mədəni-asudə vaxt - əsgərin özünün marağı ilə müəyyənləşən hərbi sərbəstlik də müəyyən mənada hərbi xidmətin tərkib hissələrindəndir. Onda əsgərlərdən biri demişdi:

- Mədəni-asudə vaxta istirahət vaxtı da demək olar.

Əsgər haqlı idi. İstirahət, həqiqətən də, marağın, həvəsin, istəyin reallaşmasıyla keçən anlardır, bu baxımdan sa atdır.

Əsgərlərdən biri demişdi:

- Mən orta məktəbdə oxuyanda mütaliəni çox sevmişəm. Hərbi xidmətə gələndən sonra ilk vaxtlar - gənc əsgərin hazırlığı dövründə buna vaxtım olmurdu. Kursu bitirdik, Hərbi and içdik. Mütaliə ilə məşğul olmağa xidmətə başladığım hərbi hissədə geniş imkan yarandı. Tarixi, bir də müharibədən bəhs edən əsərləri maraqla oxuyuram. Mənim üçün asudə vaxt mütaliə deməkdir.

Əsgərlərdən biri demişdi ki, əsgər dostlarımla bir tərəfə çəkilib könül söhbəti etməyi çox sevirik. “Uşaqlığımızdan, yeniyetməliyimizdən danışırıq, xatirələr bizi bir-birimizə daha da yaxınlaşdırır. Təkcə xatirələr danışmaqla kifayətlənmirik. Vətəndən danışırıq, torpaqlarımızı işğaldan azad edəcək döyüşlərin nə vaxt olacağından danışırıq, o döyüşlərin iştirakçısı olmaq istəyindən danışırıq. Asudə vaxt həm də əsgər dostluğunun yaranmasında, möhkəmlənməsində bir vasitədir. Biz bu vasitəni lazımi səviyyədə dəyərləndiririk. Hərbi xidmətin hər gününün də, asudə vaxtın hər saatının da qədrini bilirik”.

Xalq şairi Səməd Vurğunun "Mən tələsmirəm" şeirindən bir misranı xatırlamış, xatırlatmışdım: "Yel kimi keçməsin vaxt üstümüzdən"...

Polkovnik-leytenant Namiq Cavadov demişdi:

- 2016-cı ilin Aprel döyüşləri Azərbaycan Ordusunun gücünü təsdiqlədi. Əsgərlərlə söhbətlərdə bu qələbə haqqında da təfsilati məlumatlar verilir. Yəni, mədəni-asudə vaxt da ideoloji iş formatında keçirilir. Bütün tədbirləri birləşdirən bir meyar var - mənəvi-psixoloji hazırlığı daha da yüksəltmək. Kifayət qədər yüksək döyüş hazırlığına malik olan Azərbaycan əsgəri elə bu səviyyədə də mənəvi-psixoloji hazırlığa malikdir. Məhz bu vəhdətin nəticəsidir ki, Azərbaycan Ordusu dünyada ən güclü ordular sırasındadır.

Onda mədəni-asudə vaxtla bağlı əsgərlərdən maraqlı fikirlər eşitmişdik:

- Hərbi xidmətin ilk günlərindən istedadlıların müəyyənləşdirilməsi, hərbi hissədə onları birləşdirən qrup yaradılması mədəni-asudə vaxtın təşkilində səmərəli olardı.

- Hərbi hissələrdə Əzim Əzimzadə adına rəssamlıq məktəbinin məzunlarının yaradıcılıq imkanlarından bəhrələnmək mümkündür. Plakatların güclü ideoloji vasitə olduğu hamıya məlumdur. Mədəni-asudə vaxtın təşkilində bu amildən də istifadə edilə bilər.

Hər iki əsgərin təklifi mədəni-asudə vaxtın təşkili metodologiyası baxımından diqqəti çəkir. Polkovnik-leytenant qətiyyətlə bildirmişdi ki, hər iki təklif dəyərləndiriləcəkdir...

Dəyərli, gözəl fikirlər heç zaman unudulmur: başqa zamanda başqa hərbi hissədə əsgərlərdən eşitdiklərim də yaddaşımdadı. Əsgərlərdən biri demişdi ki, ən gözəl, bəlkə də ən gərəkli istirahət musiqi dinləməkdi. Mən muğamlarımızı, xalq havalarımızı böyük maraqla, böyük sevgilərlə dinləyirəm. Ötən muğam müsabiqəsində muğamlarımızın mahir bilicisi xalq artisti Əlibaba Məmmədovun dediyi bir fikir mənim muğamlarımıza marağımı, sevgimi daha da artırdı: muğamın fəlsəfəsini dərk edəndə dünya gözəlləşir. Atamdan eşitmişəm: müharibə bütün vasitələrlə aparılmalıdı. Musiqimizin, bu baxımdan muğamlarımızın gücündən də istifadə olunmalıdı. "Rast" da, Osmanı" da, "Heyratı" da, "Qarabağ şikəstəsi" də, ... bizim düşüncələrimizi, deməli, üreyimizi qələbəyə kökləyir. Asudə vaxtlarımızda muğamlarımızı dinləyə-dinləyə Böyük Qələbə haqqında düşünürük...

Bu düşüncələrin də mahiyyəti Vətəndi, hərbi xidmətdi, dövlətçiliyə sədaqətdi, şübhəsiz; Azərbaycan əsgərinin düşüncələrində xidmətdə də, asudə vaxtlarda da torpaqlarımızın işğaldan azad edilməsiylə nəticələnəcək Böyük Qələbə şahlıq edir. Hərbi xidmətin hər saatının qədrini bilən Azərbaycan əsgərinin düşüncələrini Dan ulduzu bilənlərin və bu qənaətində israrlı olanların sırasında mən də varam. Bu sıra çox genişdi...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist,**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# Avropa Şurasının Nazirlər Komitəsi bütün üzv dövlətlərin müstəqilliyinə və ərazi bütövlüyünə dəstəyini təsdiq edib

Mayın 17-də Finlandiyanın paytaxtı Helsinki şəhərində Avropa Şurası Nazirlər Komitəsinin 129-cu sessiyası keçirilib. Finlandiyanın Nazirlər Komitəsinə altı aylıq sədrliyinə yekun vuran bu toplantıda ölkəmizi Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini Mahmud Məmməd-Quliyev təmsil edib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Avropa Şurasının təsis edilməsinin 70-ci ildönümünün qeyd olunduğu bu nazirlər sessiyasında təşkilatın üzləşdiyi təhdidlər, mümkün islahatlar və gələcək fəaliyyət istiqamətləri müzakirə olunub. Toplantıda çıxış edən nazir müavini Mahmud Məmməd-Quliyev əvvəlcə Avropa Şurası ilə aparılan əməkdaşlığa toxunub və bir müddət öncə təsdiq olunmuş Avropa Şurasının Azərbaycan üzrə növbəti Fəaliyyət Planının icrasından bəhs edib. O, bundan əlavə, Avropa qitəsində mövcud münaqişə zonalarına beynəlxalq təsisatların girişinə dair Azərbaycanın prinsipial mövqeyini xatırladıb və bu zonalarla bağlı mümkün fəaliyyətlərin öncədən legitim mərkəzi hakimiyyət dairələri ilə razılaşdırılmalı olduğunu bəyan edib. Nazir müavini Azərbaycan torpaqlarının Ermənistan tərəfindən davam edən hərbi işğalının nəticəsi olaraq yaranmış vəziyyətə istinad edib və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə 2015-ci ildə çıxardığı önəmli hökmdə bu ölkənin Azərbaycanın işğal olunmuş əraziləri üzərində effektiv nəzarəti həyata keçirdiyi barədə gəldiyi qənaəti vurğulayıb.

Qeyd olunmalıdır ki, Avropa Şurası Nazirlər Komitəsi üzv dövlətlərindəki münaqişələri diqqətdən kənar qoymayıb. Belə ki, sessiyanın nəticəsi olaraq qəbul edilmiş siyasi bəyanatda Avropa qitəsinin bəzi hissələrinin məruz qaldığı qarşıdurma və davam edən münaqişələrə görə narahatlıq ifadə edilib və beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, barışıq və siyasi həll üçün birgə səylərin göstərilməli olduğu açıqlanıb. Daha önəmlisi isə, üzv dövlətlərin hüquq və öhdəlikləri barədə müvafiq qərarda Avropa Şurası Nazirlər Komitəsi beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlər çərçivəsində bütün üzv dövlətlərin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə dəstəyini təsdiq edib.

Helsinkidəki sessiyanın ardınca Finlandiyanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyinə yekun vurulub və sədrlik növbəti altı ay üçün Fransaya keçib.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu.**

**2. Azərbaycan Ordusunun yaranmasının hüquqi əsasları və inkişaf mərhələləri.**

**Mövzu:** Azərbaycan Ordusunun yaranması və formalaşması tarixi.

*Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu*

Azərbaycanda ordu quruculuğunun əsasının qoyulması 1918-ci ilə təsadüf edir. Həmin il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra təşkil olunmuş ilk hökumət kabinetinin tərkibində Hərbi Nazirlik də var idi. Azərbaycanın tanınmış ictimai-siyasi xadimi olmuş Xosrov bəy Sultanov isə hərbi nazir vəzifəsinə təyin olunmuşdu. Həmin dövrdə Azərbaycan son dərəcə mürəkkəb hərbi-siyasi şəraitdə qərar tutduğundan və qısa müddət ərzində Azərbaycan xalqının müstəqilliyinə qənim kəsilmiş bolşevik-daşnak qüvvələrinin qarşısını almağa qadir olacaq hərbi qüvvələrin yetişdirilməsi mümkün olmadığından Azərbaycan hökuməti hərbi kömək üçün Osmanlı Türkiyəsinə müraciət etdi. 1918-ci il iyunun 4-də Azərbaycanla Osmanlı Türkiyəsi arasında imzalanmış müqaviləyə uyğun olaraq Türkiyə hökuməti Azərbaycana hərbi yardım göstərmək qərarına gəldi və Azərbaycana hərbi qüvvələr göndərdi. Həmin dövrdə Azərbaycanda mövcud olan milli hərbi qüvvələrin və Azərbaycana göndərilmiş olan Osmanlı hərbi qüvvələrinin bazasında Qafqaz İslam Ordusu yaradıldı, Azərbaycanda ordu quruculuğuna və ordu hissələrinin fəaliyyətinə rəhbərlik Azərbaycan hökumətinin razılığı ilə Qafqaz İslam Ordusu komandanına həvalə edildi. Ona görə Azərbaycan hökumətinin ilk kabinetinin tərkibinə daxil edilmiş Hərbi Nazirliyin təşkili müvəqqəti olaraq təxirə salındı.

Azərbaycanın milli ordu qüvvələrinin əsasını hələ Cümhuriyyətin elan edilməsindən əvvəl yaradılan və general-leytenant Əlağa Şıxlinski tərəfindən rəhbərlik edilən Müsəlman korpusu təşkil edirdi. 1918-ci il iyunun 26-da Müsəlman korpusunun adı dəyişdirilərək Əlahiddə Azərbaycan korpusu adlandırıldı. Həmin gün hazırda Azərbaycan Ordusunun yaradılması günü qeyd edilməkdədir.

Qafqaz İslam Ordusunun mövcudluğu dövrü Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğunun birinci mərhələsini təşkil edir. 1918-ci il noyabrın 1-dən isə Cüm-huriyyətin ordu quruculuğunun ikinci mərhələsi başlayır. Həmin gün Azərbaycan hökuməti Hərbi Nazirliyin bərpa edilməsi haqqında qərar qəbul etdi. Nazirlər Şurasının qərarına əsasən, Azərbaycan hökumətinin sədri Fətəli xan Xoyski Hərbi nazir vəzifəsini öz üzərinə götürdü. Rusiya ordusu sıralarında tam artilleriya generalı rütbəsinə qədər şərəfli xidmət yolu keçmiş Səməd bəy Mehmandarov isə Hərbi nazirin müavini təyin edildi və Hərbi Nazirliyin formalaşdırılması ona həvalə olundu.

Birinci Dünya müharibəsinin nəticələrinə görə qalib elan edilmiş Müttəfiq dövlətlərin Bakıya gəlmiş hərbi qüvvələri komandanlığının tələbi ilə Hərbi Nazirlik 1918-ci il noyabrın 22-də Gəncəyə köçmək məcburiyyətində qaldı. Yəni, Hərbi Nazirlik 1919-cu il iyunun sonlarına kimi paytaxtdan və hökumət orqanlarından uzaqda fəaliyyət göstərməli oldu. 1919-cu ilin iyunun sonlarında Bakıya köçürülən Hərbi Nazirlik Krasnovodsk və Merkuri küçələrinin (indiki Zərifə Əliyeva və Səməd Vurğun küçələri) kəsişməsindəki binada yerləşdirildi və Cümhuriyyətin süqutuna qədər burada fəaliyyət göstərdi.

1918-ci il dekabrın 25-də Səməd bəy Mehmandarov Azərbaycan hökumətinin qərarı ilə Hərbi nazir, dekabrın 29-da isə general-leytenant Əlağa Şıxlinski (28 iyun 1919-cu ildən etibarən tam artilleriya generalı) Hərbi nazirin müavini vəzifəsinə təyin edildilər.

Azərbaycan hökuməti Hərbi Nazirliyin qarşısında ölkənin ərazi bütövlüyünü müdafiə etməyə qadir olan ordunun yaradılması vəzifəsini qoymuşdu. Hərbi Nazirliyin rəhbərləri olan Səməd bəy Mehmandarovun, Əlağa Şıxlinskinin və onların həmkarları olan general-mayor Həbib bəy Səlimovun, general-mayor Süleyman bəy Əfəndiyevin, general-mayor İbrahim ağa Usubovun, general-mayor Cavad bəy Şıxlinskinin və digərlərinin fədakar xidmətləri nəticəsində bu vəzifənin öhdəsindən uğurla gəldilər. Cümhuriyyətin süqutu ərəfəsində Azərbaycan Ordusunda hər biri üç piyada alayından ibarət olan iki piyada diviziyası, iki əlahiddə piyada diviziyası, üç alaydan ibarət olan süvari diviziyası, artilleriya briqadası və digər hissə və bölmələr mövcud idi. Məhz bu qüvvələrin vasitəsilə 1920-ci ilin martında Ermənistanın hərbi qüvvələrinin və Qarabağdakı separatçı qüvvələrin Azərbaycanın müstəqilliyinə qarşı geniş hərbi təcavüzünün qarşısını almaq mümkün oldu.

1920-ci il aprelin 28-də 70 mindən artıq olan bolşevik hərbi qüvvələrinin hərbi müdaxiləsi nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Azərbaycanda hakimiyyət bolşeviklərin əlinə keçdikdən sonra Hərbi Nazirliyin bazasında Azərbaycanın Hərbiyyə və Bəhriyyə Komissarlığı yaradıldı. Əvvəlcə Çingiz İldırım, sonra isə Əliheydər Qarayev hərbiyyə və bəhriyyə komissarı vəzifəsinə təyin edildilər.

1922-ci ilin sonlarına, yəni SSRİ təşkil edilənə kimi Azərbaycan və onun Hərbiyyə və Bəhriyyə Komissarlığı formal müstəqilliyini saxladı.

*Azərbaycan Ordusunun yaranmasının hüquqi əsasları və inkişaf mərhələləri*

XX əsrin sonlarında ölkədə siyasi hakimiyyətin böhranlı hala düşməsi və müttəfiq respublikalarda milli-azadlıq hərəkatının genişlənməsi Azərbaycanda Müdafiə Nazirliyinin bərpası üçün real imkanlar açdı. 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının Ali Soveti "Milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qərar qəbul etdi. Həmin qərarın əsasında respublika Prezidentinin 5 sentyabr 1991-ci il tarixli fərmanına əsasən Azərbaycanda Müdafiə Nazirliyi təşkil edildi və milli ordunun yaradılmasına başlandı. 1991-ci il oktyabrın 9-da isə Respublika Ali Soveti tərəfindən ordu quruculuğunun hüquqi bazası olan "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanun qəbul edildi.

Lakin bir tərəfdən Azərbaycan daxilində hərbi-siyasi vəziyyətin mürəkkəb olması, hakimiyyətdə olan qüvvələrin ordu quruculuğu sahəsində səmərəli siyasət izləyə bilməməsi, bir tərəfdən də ictimai-siyasi hərəkatların ordu daxilində qarışıqlıq yaratmaq cəhdləri, 6 ay ərzində Müdafiə naziri vəzifəsinə 4 dəfə təyinat aparılması həm Müdafiə Nazirliyinin, həm də Azərbaycan Ordusunun formalaşmasına dağıdıcı təsir göstərdi.

1993-cü ilin ortalarına kimi davam edən belə bir şəraitdə ordu quruculuğu vahid komandanlıq və bir mərkəzdən idarəolunma prinsipindən tamamilə məhrum edilmişdi. Çünki bu dövrdə dövlətə rəhbərlik edənlər öz şəxsi mənafelərinə xidmət edir və fərdi iddialarını həyata keçirirdilər. Elə bir vəziyyət yaranmışdı ki, Azərbaycan Ordusu işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı müharibə aparmalı olduğu halda, daha çox özünü qoruyub saxlamaq uğrunda mübarizə aparırdı. Ordu siyasiləşmiş, hakimiyyət uğrunda mübarizə alətinə çevrilmişdi. Bu səhvlərin nəticəsi tez bir zamanda özünü göstərdi. Şuşa və Laçın işğal edildi, Dağlıq Qarabağla Ermənistan arasında strateji "dəhliz" açıldı və Azərbaycanın neçə-neçə rayonunun sonrakı işğalı üçün zəmin yaradıldı.

Azərbaycanda Müdafiə Nazirliyinin və ordunun real şəkildə formalaşdırılması ulu öndər Heydər Əliyevin 1993-cü il noyabrın 2-də radio və televiziya ilə xalqa müraciətindən sonra başladı. Ordu və Müdafiə Nazirliyi qeyri-sağlam qüvvələrdən təmizləndi, orduya yeni qüvvələr cəlb edildi, ordu quruculuğunda köklü dəyişikliklər həyata keçirildi. Nəticədə qısa müddət ərzində ordu yenidən quruldu, təşkilatlandı və Azərbaycanın müstəqilliyinin müdafiəsində dayanmağa qadir olan bir qüvvəyə çevrildi.

Ümummilli lider Heydər Əliyevin ordu quruculuğunun bu mərhələsində apardığı işlərin hərbi-siyasi nəticəsi olaraq ordu daxilində dərinləşməkdə olan böhranın qarşısı alındı və bu sahədə keyfiyyət dəyişikliyi yarandı.

Dövlət Müdafiə Şurasının ilk iclasında cinayətkarlığa, Vətən qarşısında öz müqəddəs borcunu yerinə yetirməkdən boyun qaçıran şəxslərə qarşı barışmaz mübarizə aparılacağının bəyan edilməsi, çağırış və səfərbərlik işinin şəraitin tələblərinə uyğun qurulması, fərarilərə, hərbi xidmətdən yayınanlara qarşı ciddi tədbirlərin tətbiq olunması istiqamətində atılan qəti addımlar Azərbaycan Ordusunun döyüş hazırlığının yüksəlməsinə səbəb oldu.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan Ordusuna göstərdiyi diqqət və qayğının nəticəsində vahid komandanlıq prinsipi bərqərar edildi, ordunun maddi-texniki təminatı əvvəlki illərdən fərqli olaraq əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, hərbi hissə və birləşmələrin maddi-texniki, tibbi və digər vasitələrlə təmin edilməsi təşkil olundu, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Azərbaycan Ordusuna tələb olunan silah, hərbi texnika, döyüş sursatı, arxa xidmət əmlakı və digər maddi vasitələrin Azərbaycan Respublikasının sənaye müəssisələrində istehsal edilməsi ölkə iqtisadiyyatının inkişafına da təkan verdi. Orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi.

1993-cü il dekabrın 10-da Beyləqan istiqamətində hücuma keçən Ermənistan Silahlı Qüvvələri ilk dəfə ordumuzun mütəşəkkil müqaviməti ilə qarşılaşdı. Dekabrın sonlarında Goranboy, Tərtər və Ağdam istiqamətlərində düşmənin hücumlarının qarşısı alındı, onun xeyli canlı qüvvəsi və texnikası məhv edildi. Füzuli-Beyləqan istiqamətində əks-hücuma keçən qoşunlarımız işğal olunmuş torpaqlarımızın bir hissəsini azad edərək düşmənin bu istiqamətdə yerləşən hərbi qruplaşmasını darmadağın etdilər. Belə bir şəraitdə ermənilər danışıqlar stolu arxasına gələrək 1994-cü il mayın 12-də atəşkəs haqqında sənədə qol çəkməyə məcbur oldular və bununla da Azərbaycan Ordusunun yenidən qurulmasına şərait yarandı.

Dövlətçilikdə varislik anlayışına önəm verən ulu öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanı ilə 26 iyun Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan edildi. Bu gün iqtisadi yüksəlişi ilə diqqətləri özünə cəlb edən ölkəmiz yaradılmış qüdrətli ordusu ilə də hər bir azərbaycanlının qürur mənbəyinə çevrilib. Artıq bütün dünya Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın regionun ən qüdrətli ordusuna malik olduğunu təsdiq edir.

Ulu öndər Heydər Əliyevin 1999-cu il fevralın 20-də imzaladığı fərmana əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyası fəaliyyətə başlamış, 2001-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi yaradılmışdır.

Müasir müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. Qarşısına qoyulan hər hansı tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik olan Azərbaycan Ordusu bu gün NATO standartlarına cavab verən səviyyədə formalaşmışdır. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu ümummilli lider Heydər Əliyevin başladığı və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Ordu quruculuğunda mühüm rol oynayan kadr hazırlığı da ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir.Yüksək kadr potensialı və geniş maddi-texniki bazası olan yerli hərbi məktəblərlə yanaşı, hərbçilərimiz bir sıra vacib hərbi ixtisaslar üzrə təhsil almaq üçün Türkiyə, Rusiya, Ukrayna, Pakistan, Çin və digər ölkələrə göndərilir. Eyni zamanda, Azərbaycan hərbçiləri NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində təşkil olunan müxtəlif ixtisasartırma və təlim kurslarında da yaxından iştirak edirlər. Azərbaycanın NATO ilə əlaqələri artıq "Fərdi Tərəfdaşlığın Fəaliyyət Planı" çərçivəsində inkişaf edir. Bu isə ölkəmizdə ordu quruculuğu prosesində növbəti nailiyyətlərin qazanılması üçün möhkəm təməl deməkdir.

2005-ci ildən bu günə qədər Müdafiə Sənayesi Nazirliyinin xətti ilə 900 adda hərbi təyinatlı silah-sursat istehsal olunub və bu gün bu proses davam etdirilir.

Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoyub. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, ordumuzun müasir silahlarla təminatı istiqamətində görülən işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub. Aprel döyüşləri və Naxçıvan əməliyyatı Azərbaycan Ordusunun gücünü və işğal altında olan torpaqlarımızı qısa müddətdə azad etməyə qadir olduğunu bir daha göstərdi. Bu gün bizim ordumuz istənilən vəzifəni icra edə bilər və Silahlı Qüvvələr miqyasında keçirilən komanda-qərargah hərb oyunları və taktiki təlimlər bunun əyani sübutudur. Dünya ordularının ən qabaqcıl təcrübələri öyrənilərək Azərbaycan Ordusunda tətbiq olunur. Regionda yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlıqlı və ərazi bütövlüyümüzə qarşı yönəldilən hər bir təcavüzə layiqli cavab verməyə qadir olmasını tələb edir. Bu gün Azərbaycan əsgəri havada, suda və quruda Vətənin maraqlarını şərəflə qoruyur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan dövlətinin bu istiqamətdə yürütdüyü siyasətin məğzini, məqsədini çox aydın və dürüst şəkildə belə ifadə edib: "Biz bütün sahələrdə orduda gedən proseslərin inkişafına çalışırıq. Son illər ərzində maddi-texniki bazanın möhkəmdirilməsində böyük işlər görülmüşdür, çoxlu texniki avadanlıq, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan Ordusu xeyli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik. Azərbaycan müharibə şəraitində yaşayır və belə olan halda ilk növbədə ordu quruculuğuna böyük diqqət göstərilməlidir".

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Yeni kitablar*

# Tarix haqqında dəyərli tədqiqat

*Müstəqillik dövrü Azərbaycan Respublikasının sürətli inkişafının ən bariz göstəricilərindən biri də təşkilatlanmış və formalaşmaq Ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan müasir Azərbaycan Ordusudur. Hazırda müstəqilliyimizin və dövlətçiliyimizin etibarlı dayağına çevrilən bu ordunun şərəfli tarixinin yüzüncü ildönümü keçən il böyük sevinc və qürurla qeyd edildi. Fəxrlə qeyd olunmalıdır ki, müasir Azərbaycan Ordusu yüz illik bir tarixə malikdir və bu tarixin hər bir səhifəsi Vətən övladlarının fədakar xidməti ilə yazılmışdır. Bu şərəfli tarixin öyrənilməsi, üzə çıxarılması tarixçilərimiz qarşısında dayanan məsuliyyətli bir vəzifədir. Bu istiqamətdə sözsüz ki, son illər ərzində müəyyən işlər görülübdür. Lakin görüləsi işlər də çoxdur və bu baxımdan Azərbaycan Respublikası Silahlı Qüvvələrin Hərbi Akademiyasının professor-məsləhətçisi, tarix elmləri doktoru, ehtiyatda olan polkovnik Mehman Süleymanovun son zamanlar işıq üzü görmüş beş cildlik "Azərbaycan Ordusunun tarixi" əsəri Azərbaycan Ordusunun tarixinin elmi-akademik araşdırılması istiqamətində çox sanballı bir araşdırma kimi dəyərləndirilməlidir.*




Bu kitab kifayət qədər aktual bir mövzuya həsr edilmişdir. Mövzu yalnız ordu quruculuğu ilə məşğul olanlar üçün deyil, bütünlükdə cəmiyyət üçün maraqlıdır. Çünki müstəqil dövlətin həm ordusunun şəxsi heyəti, həm də bu dövlətin gəncliyi öz qəhrəmanlıq tarixini öyrənməli, bu tarix üzərində formalaşmalıdır. Bu tarix Vətənə məhəbbət, müstəqilliyə sədaqət, dövlətçiliyə bağlılıq tarixidir və onun öyrənilməsi gəncliyimizin mənəvi dünyasının daha da zənginləşməsinə aparan bir yoldur. Bu mənada təqdim olunan kitab qiymətli bir vasitə ola bilər.

Həcmi etibarı ilə bu araşdırma böyük elmi axtarışların və zəhmətin nümunəsi kimi diqqəti cəlb etməkdədir. Ümumi həcmi dörd min səhifəyə yaxın olan bu əsər Azərbaycan Ordusunun yüz illik tarixinin beş dövrünü əhatə edir. Adı çəkilən əsərin birinci cildi Azərbaycan Ordusunun Qafqaz İslam Ordusu dövrü, ikinci cildi Azərbaycan Xalq Cümhuriyyəti ordusunun hərbi nazir Səməd bəy Mehmandarovun rəhbərliyi altındakı təşkilatlanma dövrü, üçüncü cildi 1920-22-ci illəri, dördüncü cildi 1923-1990-cı illəri və nəhayət, beşinci cildi müasir dövrü əhatə edir.

Təqdim olunan kitab Cümhuriyyət dövrünün ordu quruculuğunu əhatəli şəkildə öyrənməyə imkan verən bir kitabdır. Azərbaycan tarixşünaslığında Cümhuriyyət ordusunun tarixi ilk dəfədir ki, belə geniş, əhatəli və elmi şəkildə öyrənilmişdir. Mövzu dəfələrlə aprobasiyadan çıxarılmışdır. Çünki müəllif təxminən 20 ildir ki, Cümhuriyyət ordusunun tarixinin öyrənilməsi ilə məşğul olur. Bunun üçün o, nəinki Azərbaycan arxivlərində, həm də Türkiyə Silahlı Qüvvələrinin arxivlərində saxlanılan Qafqaz İslam Ordusunun sənədlərini araşdırmışdır. Ötən 20 il ərzində müəllifin Cümhuriyyət ordusu mövzusunda 10-a yaxın kitabı çap olunmuşdur və bu kitablarda əldə edilmiş yeni sənədlər və faktlar əsasında daha da təkmilləşdirilmişdir.

Bu kitabın dəyərli tərəflərindən biri də müəllifinin hərbçi olması ilə bağlıdır. Bu da müəllifə imkan vermişdir ki, mövzunun araşdırılmasına hərbi-tarixi baxımdan yanaşsın və apardığı tədqiqatlardan düzgün hərbi-elmi qənaətlər əldə etsin.

"Azərbaycan Ordusunun tarixi. I-II cild" kitabı Azərbaycanda ordu quruculuğu tarixinin Cümhuriyyət dövrünü əhatə edir və bu dövrdə ordu quruculuğunun elə bir əsaslı məsələsi yoxdur ki, adı çəkilən kitabda tədqiq edilməsin.

Cümhuriyyət dövrünün ordu quruculuğu Azərbaycanda nizami ordu quruculuğunun başlanğıcını qoymuşdur və bu ordu quruculuğunun aparılmasına Azərbaycan xalqının şərəfli generallar və zabitlər nəsli cəlb edilmişdi. Cümhuriyyət hökumətinin rəhbərliyi altında məhz bu zabit və generalların sədaqətli xidmətləri, onların Azərbaycanın müstəqilliyinə bağlılığı nəsillərimiz üçün qürur mənbəyi olacaq bir hərbi irs miras qoymuşlar. Bu mirasın əhatəli şəkildə araşdırılması və geniş oxucu kütləsinə çatdırılması sahəsində təqdim olunan kitabın da əhəmiyyət kəsb edəcəyi şübhəsizdir.

Tarix haqqında bu dəyərli tədqiqat əsərinin birinci cildində çar Rusiyası dövründə azərbaycanlılar arasında hərb işinin vəziyyətinə, Birinci Dünya müharibəsi dövründə təşkil edilmiş Tatar atlı alayının, çar Rusiyasının çökməsindən sonra təşkilinə başlanmış Müsəlman korpusunun tarixinə toxunulsa da, başlıca olaraq Qafqaz İslam Ordusunun təşkili və Azərbaycanın bolşevik-daşnaklardan xilas edilməsi sahəsində bu ordunun tarixi fəaliyyəti tədqiqat obyektinə çevrilmişdir. Kitabın ikinci cildi isə 1918-ci ilin noyabrından etibarən general Səməd bəy Mehmandarovun rəhbərliyi altında aparılan ordu quruculuğunun tarixinin araşdırılmasına həsr edilmişdir.

Cümhuriyyətin ordu quruculuğunun hər iki dövrü çox zəngin arxiv materialları əsasında araşdırılmışdır. Türkiyə Silahlı Qüvvələrinin arxivlərində Qafqaz İslam Ordusuna aid olan materialların araşdırılması, habelə Azərbaycan arxivlərində Cümhuriyyət ordusu ilə bağlı saxlanılan arxivlərin əhatəli şəkildə araşdırılması müəllifə maraqlı və əhatəli bir əsər yazmağa imkan vermişdir.

Cümhuriyyət dövrü ordu quruculuğunun öyrənilməsi üçün M.Süleymanovun təqdim olunan kitabı hazırda Azərbaycan tarixşünaslığında müraciət edilə biləcək əsas ədəbiyyatdır. Bu kitabda aparılan tədqiqatın obyektivliyi, əldə edilmiş nəticə və qənaətlərin doğruluğu şübhə doğurmaya bilər. Çünki müəllif bu mövzu ilə uzun illərdir ki, məşğul olur və Azərbaycan tarixşünaslığında Cümhuriyyət ordusunun əsas mütəxəssislərindən biri kimi tanınır. "Azərbaycan Ordusunun tarixi" istər tarixi elmi, istərsə də elmi dəyəri ilə diqqəti çəkir. Azərbaycan tarixşünaslığında başlıca mənbələrdən biri kimi dəyərləndirilməlidir.

**Gülsurə HÜSEYNOVA,**
**Hərbi Akademiyanın adyunktu**

*Hərbi texnikalar, silahlar*

# "Super Muşşak" təlim təyyarəsi



"Super Muşşak" təlim təyyarəsi dünyanın ən təhlükəsiz təyyarələrindəndir. Hazırda Pakistanın Hərbi Hava Qüvvələri və ordusunun silahlanmasında bu təyyarədən təlimlərdə və digər tədbirlərdə istifadə edilir. Bu təyyarələrin ixracı üzrə müxtəlif ölkələrlə çoxlu sayda müqavilə imzalanıb. Yüngül çəkili təlim təyyarəsi "Super Muşşak" uçuş olmayan ərazilərdə də eniş etməyə qadirdir. Ondan patrul missiyasını yerinə yetirmək üçün də istifadə edilir. Hava ərazisində 4-5 saat qala bilir. "Super Muşşak" təlim təyyarəsinin heyəti iki nəfərdir. Hündürlüyü 2,60 metr, boş halda çəkisi 760 kiloqram, uçuş ağırlığı 1250 kiloqram, maksimal sürəti saatda 268 kilometr, kreyser sürəti saatda 240 kilometrdir. Təyyarə bir ədəd 260 at gücündə altısilindrli "Textron Lycoming IO-540 V4A5" mühərriklə təchiz edilib. Təyyarənin uçuş uzaqlığı 814 kilometr, uçuş hündürlüyü isə 6705 metrə çatır. 300 kiloqrama qədər yük götürmək qabiliyyətinə malikdir.



**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyədə genişmiqyaslı antiterror əməliyyatı keçirilib



Ankara Cümhuriyyət Baş Prokurorluğu FETÖ-yə üzv olan və bu terror təşkilatına xidmət edən daha 249 nəfərin həbsi ilə bağlı sanksiya verib.

Təqsirləndirilən şəxslər 2010-2013-cü illərdə Xarici İşlər Nazirliyinə işə girmək məqsədi ilə test imtahanlarında saxtakarlıqdan bəhrələnənlərdir. Bildirilir ki, xarici dil fənlərinə aid imtahanın nəticələri bu şəxslərin xeyrinə saxtalaşdırılıb. Sanksiyaya əsasən, mayın 20-də ölkənin 42 vilayətində eyni vaxtda antiterror əməliyyatı keçirilib və 78 nəfər həbs olunub.

Digər bir rəsmi məlumatda isə bildirilir ki, Türkiyə Silahlı Qüvvələrinin qırıcıları İraqın şimalında yerləşən Hakurk bölgəsindəki PKK düşərgələrinə dağıdıcı zərbələr endirib. Bundan başqa, bir neçə gün əvvəl təhlükəsizlik qüvvələrinə təslim olan "Kava" ləqəbli Behrüz Düdükkanlu PKK terror təşkilatının Türkiyə ərazisindəki sığınacaq və silah anbarları barədə əhəmiyyətli məlumatlar verib. Bu informasiyalar əsasında, çoxlu sayda silah anbarı məhv edilib.

### Rumıniyada NATO-nun "Steadfast Cobalt 2019" təlimləri başlayıb




Rumıniya Müdafiə Nazirliyinin məlumatına əsasən, ölkədə NATO-nun informatika və kommunikasiya sahəsində ən böyük təlimləri hesab olunan "Steadfast Cobalt 2019" təlimləri başlayıb.

Təlimlər Otopeni şəhərində yerləşən Strateji kommunikasiyalar və informatika mərkəzində keçirilir. Təlimlərdə ümumi olaraq NATO-nun 35 birləşməsindən 1200 hərbçi iştirak edir. C4İSR kommunikasiya sistemi yoxlanılaraq, test və attestasiya ediləcək. "Steadfast Cobalt 2019" təlimlərində əsas məqsəd NATO-nun əməliyyatlarında beynəlxalq dəstəyin hazırlanması, insan və texniki resursların qarşılıqlı uyğunluğunu təmin etməkdir.

### ABŞ Fars körfəzi üzərindən uçuşların təhlükəli olması barədə xəbərdarlıq edib



Amerika hakimiyyəti ABŞ və İran arasında gərginliyin artması səbəbindən Fars körfəzi üzərindən uçuşların təhlükəli olması barədə kommersiya aviadaşıyıcılarını xəbərdar edib.

Amerikalı diplomatların ABŞ Federal Aviasiya İdarəsinə təqdim etdiyi xəbərdarlıqda regiondakı hazırkı gərginliyin kommersiya aviadaşıyıcılarının təhlükəsizliyini təhdid etdiyi bildirilir.

Bir qədər əvvəl "Lloyd's of London" sığorta kompaniyası da regionda dəniz daşımaları üçün risklərin artdığı barədə xəbərdarlıq yaymışdı.

### Çadda etnik toqquşmalar azı 22 nəfərin həyatına son qoyub



Çadda etnik toqquşmalar nəticəsində azı 22 nəfər həlak olub, 28 nəfər isə xəsarət alıb.

Yerli "Wihda" qəzetinin yaydığı məlumata görə, toqquşmalar mayın 19-da Sila əyalətinin üç yaşayış məntəqəsində qeydə alınıb. Münaqişə yerli xalqlarla ərəb qəbilələri arasında baş verib. Çad ordusunun birləşmələri sabitliyi bərpa etmək üçün 10 avtomobillə münaqişə zonasına gəlib.

Xatırladaq ki, ötən həftə qonşu Vadday əyalətində naməlum silahlı şəxslərin kəndlərdən birinə hücumu nəticəsində azı 13 nəfər həlak olmuşdu.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunda hərbi beşnövçülük üzrə birincilik keçirildi

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2019-cu tədris ilinin hazırlıq planına əsasən, Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisinin əmri ilə Azərbaycan Ordusunda hərbi beşnövçülük üzrə birincilik keçirildi.*



Mayın 13-dən 18-dək davam edən yarışlar Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin və təlim mərkəzlərindən birinin bazasında təşkil olunmuşdu. Birlik, birləşmə və xüsusi təyinatlı təhsil müəssisələrinin hərbi qulluqçularının cəlb olunduğu yarışlarda 14 komandanın tərkibində 84 idmançı iştirak edirdi. İdmançılar maneələr zolağını dəfetmə, maneələrlə üzmə, qumbaraatma, atış, 8 kilometr məsafəyə kross qaçışı mərhələləri üzrə güclərini sınadılar. Birincilik "Azərbaycan Respublikası Silahlı Qüvvələrində idman və hərbi-idman yarışlarının təşkili, keçirilməsi və yarış qaydaları"nın tələblərinə uyğun təşkil olunan yarış Müdafiə Nazirliyinin məsul zabitləri tərəfindən idarə edildi.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində rəsmi ritualların yerinə yetirilməsi ilə yarışlar başlandı. Ümummilli liderimiz Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Polkovnik Sadiq Paşayev yarışları açıq elan edərək, orduda şəxsi heyətin fiziki hazırlığının daim diqqət mərkəzində olduğunu qeyd etdi. Bildirdi ki, fiziki hazırlıq hərbi qulluqçuların təlim və döyüş tapşırıqlarının yerinə yetirilməsi üzrə döyüş hazırlığının mühüm və ayrılmaz tərkib hissəsi olmaqla, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi istiqamətlərindən biridir. Belə yarışların keçirilməsində əsas məqsəd hərbi qulluqçular arasında fiziki keyfiyyətləri inkişaf etdirmək, zəruri səviyyədə saxlamaqdır.

Ümumi olaraq şəxsi heyətə yarış zamanı təhlükəsizlik qaydaları çatdırıldı.

Birincilik maneələr zolağının dəfetmə mərhələsi ilə başladı. 500 metr uzunluğunda və 20 maneədən ibarət olan maneələr zolağını keçmə üsulunu seçməkdə iştirakçı sərbəst idi. Əgər hər hansı bir maneə qaydaya uyğun şəkildə keçilməzdisə, iştirakçı həmin maneəni yenidən dəf etməli idi. Gərgin idman mübarizəsi şəraitində keçən bu mərhələdə əsgər Fəhmin Nəsirov ("Beyləqan") birinci, əsgər Murad İlmanov (HHQ), kursant Mirağa Əliyev (H.Əliyev adına AAHM) üçüncü oldular.

Məktəbin bazasında yenicə istifadəyə verilmiş üzgüçülük hovuzunda maneələrlə üzmə mərhələsi təşkil olundu. Bu mərhələdə iştirakçılar uzunluğu 50 metr olan hovuzda 4 maneəni dəf etməklə sərbəst üsulla üzməli idilər. Startdan çıxış beynəlxalq yarış qaydalarına uyğun formada verildi. Start zamanı səhv olardısa, start dayandırılır, iştirakçıya xəbərdarlıq ediləcəkdi. Ümumi nəticəyə əsasən, bu mərhələdə baş leytenant Ramazan Balakişiyev (HDQ) ən yüksək nəticə göstərdi. Baş leytenant Rüfət Səfərov (HHQ) ikinci, miçman Vasif Əmənov (HDQ) üçüncü oldular.

Yarışın ikinci günündə qumbaraatma mərhələsi keçirildi. İdmançılar qumbaranın dəqiqliklə və uzağa atılması üzrə güclərini sınadılar. Qumbaranın dəqiqliyə atılması zamanı iştirakçılar sıra ilə 20, 25, 30 və 35 metr uzaqlıqda olan 4 dairəyə 4 qumbara olmaqla, cəmi 16 qumbara atdılar. 16 qumbaraatmadan əldə olunan xallar cəmləndi. Qumbaranın uzağa atılmasında iştirakçılar 3 ədəd qumbaranı sərhədləri nişanlanmış atış sahəsində mümkün olduğu qədər uzağa atmalı, qumbara nişanlanmış sahəyə düşməli idi. 3 qumbaradan ən uzağa düşənin məsafəsi ölçülür və ona uyğun xal yazılırdı. Hər iki qumbaraatmadan əldə olunan xalların cəminə əsasən miçman Vasif Əmənov (HDQ) birinci, əsgər Fəhmin Nəsirov ("Beyləqan") ikinci, əsgər Orxan Əbiyev ("Bərdə") üçüncü oldular.

Yarışların üçüncü günündə iştirakçılar atış mərhələsində sərrast atəşaçma bacarıqlarını nümayiş etdirdilər. İdmançılar Beynəlxalq İdman Atıcılığı Federasiyasının müəyyən etdiyi 10 dairəli hədəfə 200 metr məsafədən dəqiq atəş açmalı idilər. Atəş açmaq üsulları yavaş və sürətli tempdə müəyyənləşdirilmişdi. Hər temp üçün iştirakçıya 10 patron verilirdi. Hər iki atışda qazanılan xallar toplanır və yekun nəticə çıxarılırdı. Miçman Vasif Əmənov (HDQ) daha çox xal toplamaqla birinci oldu. Kiçik çavuş Anar Abbasov ("Beyləqan") ikinci, kursant Sunel Abbasov (TTM) isə üçüncü oldular.

Mübarizənin sonuncu günündə təlim mərkəzində 8 kilometr məsafəyə kross qaçışı keçirildi. Kiçik çavuş Əhliman Gülmalıyev ("Mühəndis") birinci, əsgər Ələkbər Ələkbərov (HHQ) ikinci və kiçik çavuş Pərviz Bəbirov ("Şəmkir") üçüncü oldular.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində yarışların mükafatlandırılma və bağlanış mərasimi keçirildi. Yarışın nəticələri elan olundu. Fərdi mübarizədə ən çox xal toplamış kursant Almaz Misirxanov (H.Əliyev adına AAHM) birinci, çavuş Nurlan Nəzərov ("Bakı") ikinci, kursant Mirağa Əliyev (H.Əliyev adına AAHM) üçüncü oldular. Komanda hesabında "Beyləqan" komandası birinci yeri tutdu. AAHM və "Şəmkir" komandaları müvafiq olaraq ikinci və üçüncü yeri tutdular.

Sonda qalib komanda kubokla, fərqlənən idmançılar fəxri fərman və medallarla mükafatlandırıldılar. Yarışların keçirilməsində yüksək səviyyədə hakimlik etdiyinə görə mayor Fuad Şahgəldiyev və mayor Taleh Eyyubov diplomla təltif olundular. Qaliblərlə xatirə şəkli çəkdirildi.

**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində növbəti hadisə törədilib.

Döyüş postunda baş verən hadisəni araşdırmaq məqsədilə hərbi polisin müstəntiqi ora ezam olunub. O əsgərləri blindaja çağırıb və post başçısına törədilmiş hadisəni ört-basdır etmək və guya onlara kömək etmək üçün öz aralarında razılığa gəlmələrini bildirib. Bundan sonra müstəntiq siqaret çəkmək adı ilə blindajı tərk edib. Tərk etməzdən qabaq qovluğundakı diktafonu işə salaraq orada olan söhbətin gizli yazısını qeydə alıb.

Post başçısı R.Sahakyan isə əsgərlərdən birini dilə tutaraq "işi" boynuna götürməyini istəyib. Sonra müstəntiq səs yazısı ilə hərbi qulluqçuları şantaj edərək onlardan külli miqdarda pul tələb edib.

Bu barədə adı çəkilən hadisədə iştirak edən və valideynlərindən pul taparaq onu qurtarmağa imdad istəyən əsgər danışıb. Pul tapa bilməyən valideynlər faktla bağlı təcili tədbir görülməsi məqsədilə sosial şəbəkə üzərindən Ermənistan müdafiə nazirliyinə müraciət ünvanlayıblar.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində qeyri-döyüş şəraitində xəsarət alanların sayı azalmır.

Eyni gündə 9-cu dağatıcı alayın 2 əsgəri hərbi hospitala təxliyə olunub. Həkimlər vəziyyətlərinin ağır olduğunu bildiriblər.

Tibb müəssisəsinin həyətində günlərlə gözləyən valideynlər övladları üçün çatışmayan dərmanları da özləri alırlar.

Əsgərlərdən birinin atası qohumları ilə söhbətdə deyib ki, onun oğlunu ilan sancdığı, digər əsgəri isə döyüş postunda öz həmyerlisi tərəfindən güllələndiyi üçün hospitala yerləşdiriblər.

Güllə yarası alan əsgərlə bağlı cinayət işi açılıb və istintaq davam edir.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# İdman

## Azərbaycan taekvondoçusu ikiqat dünya çempionu olub



Azərbaycanın taekvondo üzrə böyüklərdən ibarət milli komandasının üzvü Milad Beigi Hərçəqani Böyük Britaniyanın Mançester şəhərində keçirilən dünya çempionatının qalibi olub.

O, çempionatın həlledici döyüşündə yunanıstanlı Apostolos Telikostoqlounu 22:12 hesabı ilə məğlub edərək yarışın qızıl medalını qazanıb.

Dünya çempionatında 80 kiloqram çəki dərəcəsində kişilərin mübarizəsində taekvondoçumuz M.Hərçəqani kubalı, fransalı və moldovalı idmançılardan üstün olaraq yarışların yarımfinal mərhələsinə vəsiqə əldə edib. Bu mərhələdə taekvondoçumuz Koreya təmsilçisinə də qalib gələrək yarışların finalına yüksəlib. Yığmamızın üzvü həlledici görüşdə yunanıstanlı idmançını məğlubiyyətə uğradaraq ikiqat dünya çempionu titulunа sahib olub.

## Cüdoçumuz Murad Fətiyev Avropa Kubokunda qızıl medal qazanıb



Orenburqda keçirilən Avropa Kubokunda Azərbaycan cüdoçusu qızıl medal qazanıb.

Qitə turnirində Murad Fətiyev (81 kq) bütün rəqiblərini mübarizədən kənarlaşdıraraq finala vəsiqə qazanıb. Qızıl medal uğrunda görüşdə rusiyalı idmançı Turpal Terkayevi məğlub edən cüdoçumuz Avropa kubokunun qalibi olub.

Azərbaycan əldə etdiyi bir qızıl medalla turnirdə ümumi hesabda beşinci pillədə qərarlaşıb. Birinci yeri Rusiya (10 qızıl, 8 gümüş, 14 bürünc medal), ikinci yeri Belarus (1 qızıl, 1 gümüş, 1 bürünc medal), üçüncü yeri isə Fransa (1 qızıl, 1 gümüş medal) komandası tutub.

## İrina Zaretska Karate 1 Seriya A turnirində gümüş medala sahib olub




Azərbaycan idmançısı İrina Zaretska İstanbulda keçirilən Dünya Karate Federasiyasının (WKF) Karate 1 Seriya A turnirində gümüş medal qazanıb.

Qadınlardan ibarət milli komandanın lideri İrina Zaretska (68 kq) dünya reytinq cədvəlində ikinci olduğundan yarışa növbəti dövrədən qatılıb. İdmançımız finala gedən yolda belçikalı Luana Debattini (8:0), ABŞ təmsilçisi Çeril Mörfini (1:0), yunanıstanlı Kiriaki Kidonakini (4:0) və Slovakiya karateçisi Miroslava Kopunovanı (1:0) məğlub edib. O, yarımfinalda yaponiyalı Someya Kayo ilə görüşü xalsız heçheçə ilə başa vursa da hakimlərin qərarına əsasən qələbə idmançımıza verilib. Finalda həlledici görüşdə Marina Rakoviça (Monteneqro) 2:4 hesabı ilə uduzan karateçimiz turnirin gümüş medalı ilə kifayətlənməli olub.

## Azərbaycan samboçuları Avropa çempionatında iki medal qazanıblar



İspaniyanın Xixon şəhərində keçirilən kişilər və qadınlar arasında idman və döyüş sambosu üzrə Avropa çempionatına yekun vurulub.

Qitə çempionatında Azərbaycan samboçuları iki medal qazanıblar. İdman sambosu üzrə Nəsimi Umbayev (52 kq), döyüş sambosu yarışında isə Bəxtiyar Abbasov (82 kq) bürünc medal qazanıblar.

**AZƏRTAC-ın materialları əsasında**

Baş leytenant Rəsulov Nurlan Natiq oğluna 2018-ci ildə və leytenant Mikayılova Nəzrin Seyidağa qızına 2017-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 420
Nüsxə 3950